**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 67 (1435) 11 aprel - 12 aprel 2017-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# YARIMÇIQ QALMADI

**Xain, fitnəkar ermənilər, Qarabağa hücumunu 2016-cı il aprel ayında da mökəmləndirmək istəyirdilər. Lakin üç gün keçən şiddətli döyüşlər nəticəsində ermənilər itki verərək geri çəkildilər. Bu qanlı toqquşmada Rəssamlıq Akademiyasının tələbəsi Sadıq da iştirak edirdi. O, Bakıda nəinki təhsilini, hətta valideynlərini və sevdiyi qız Ülviyyəni də qoyub gəlmişdi. Qarşıdurmanın ilk günlərində Sadıq həlak olur. Onun istedadlı bir heykəltaraş kimi yaradıcılıq işi yarımçıq qalır. Təsəvvürün gücü ilə hazırlanmış tamaşada onun o dünyadakı varlığı da təsvir edilir. Sadıq ordan geriyə dönür və öz sevgilisi ilə ünsiyyət qurub danışa bilmir. Bu da Sadıqda belə bir qətiyyət yaradıb ki, bu dünyada qalanlar onu unudublar, hər şey yarımçıq qalmışdı.**

Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrında Yefim Abaramov və Leyla bəyimin "Yarımçıq qalmış" psixoloji dramı belə bir hadisədən bəhs edir.

Azərbaycan Respublikasının xalq artisti, rejissor Vaqif Əsədov isə bu psixoloji dramı Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrında çox maraqlı, düşündürən, qəmləndirən bir formada tamaşaya hazırlamışdır. Hadisələr çox sürətlə, dumanlar içindən peyda olur və əriyərək heçə dönür.

Bu tamaşanı V.Əsədov özünün 70 illiyini qeyd etdiyi zaman hazırlamışdı və anadan olduğu gün, aprelin 5-də onu tamaşaçıların ixtiyarına təqdim etdi.

Vaqif Əsədov Azərbaycan Dövlət İncəsənət universitetini bitirmişdir. Bir müddət Naxçıvan Dövlət Musiqili Dram teatrında aktyor, sonra isə rejissor işləmişdir. Bu istedadlı səhnə xadimi hazırladığı tamaşalarla tamaşaçılarımızın hüsnü-rəğbətini hələ Naxçıvanda olandan qazanmışdı. O, ilk dəfə Sofokulun "Medeya" faciəsini uğurlu bir tamaşa kimi hazırlandığına görə Moskva Mərkəzi televiziyası ilə bütün SSRİ məkanına nümayiş etdirilmişdir. 1985-ci ildə isə Sofokulun "Elektra" faciəsini də böyük müvəffəqiyyətlə tamaşaya qoymuşdu. Vaqifin xarici ölkələrin dramaturgiyasına çox böyük meyil vardır. O.O. "Nilin "Qarağaclar altında məhəbbət", R.Messianın "Sükut divarı" və sair dramalarını da tamaşaya qoymuşdur. Bununla belə Vaqif milli dramaturgiyamıza da böyük məsuliyyətlə yanaşmış, onların əsərlərini həm Naxçıvanda, həm də Bakıda tamaşaya hazırlamışdır.



1982-ci ildə Naxçıvanda Hüseyin Cavidin qəbrinin Naxçıvana köçürülməsi ilə əlaqədar ümumimilli lider Heydər Əliyevin tapşırığı ilə poeziya teatrı açılmalı idi. Yeni teatr Cavidin şeirləri əsasında "Mənim tanrım gözəllikdi, sevgidi" tamaşasını hazırlıyırdı. Vaqif Əsədovu çoxdan tanıdığıma görə və aktyor kimi ifasında bir neçə rol oynadığının şahidi olduğuma görə mədəniyyət Nazirliyi Poeziya teatrının açılışına dost köməyi göstərmək üçün məni Naxçıvana üç aylıq ezamiyyətə göndərdi. Vaqifin qonaqpərvərliyini, mənə hörmətini, böyük mədəniyyət sahibi olduğunun orda tam şahidi oldum. Həmişə Naxçıvana gedəndə Vaqif məni öz evinə qonaq aparardı." Mənim tanrım gözəllikdi, sevgidi" poetik tamaşasını Vaqif böyük məsuliyyət və məhəbbətlə tamaşaya hazırladı. İnsan kimi böyük mədəniyyətə malik olduğunu, aktyorlarla böyük hörmətlə rəftar etdiyini və həm ailəsində, həm də şəhərdə dərin hörmətə malik olduğunun da şahidi idim.

İndi keçək rejissorun öz yubileyinə hazırladığı "Yarımçıq qalmış" psixoloji dram tamaşasına. Qeyd etməliyəm ki, tamaşada ürəyaçan, sevindirən cəhət çoxdur. Aktyorların demək olar ki, hamısı öz rollarına böyük məsuliyyətlə yanaşırdılar. Lakin təəssüf ki, çox vaxt nə danışdıqlarını aydın eşitmək olmurdu. Bu qüsur teatrın son illər hazırladığı tamaşalarında tez-tez nəzərə çarpır.



Əsərin baş qəhrəmanı Sabiri Elnur Kərimov ifa edir. Bu aktyor oynadıqları bütün rollarda seçilir və tamaşaçılar tərəfində sevilir. Sabir-E.Kərimov sevgilisi Ülviyyə-Günel Məmmədovanı səmimi qəlbdən sevir. Onların dialoqları bəzən arxa planda çalıb oxuyan gənclərin səsləri fonunda da aydın eşidilirdi. Sabir və Ülviyyənin münasibətləri demək olar ki, əsərin süjet xəttində çox parlaq bir yer tutur. Rejissor xüsusilə Sabirin o dünyadan gəlib Ülviyyə ilə görüşünü böyük sənətkarlıqla qurmuşdu. Bu dünyada yaşayanlar o dünyadan gələnləri nə görür, nə də eşidir. Sabirin Ülviyyənin diqqətini cəlb etmək, onunla ünsiyyət qurmaq cəhdləri boşa çıxır. Sabirin gəlişi də, pantamimanı xatırladan hərəkətləri də Ülviyyənin fikrini göylərə dikilən gözlərində oxumaq istəyir. Lakin ünsiyyət alınmır. Sabir böyük kədərlə ondan ayrılır, öz naməlum dünyasına düşür. Teatrın aktyorlarından çox eşitmişəm ki, Elnur Kərimov və Günel Məmmədovanın partnyor kimi iştirak etdiyi tamaşalarda ifaları həmişə maraqla qarşılanır.

Tamaşada Fariz rolunu əməkdar artist Elşən Rüstəmov ifa edir. Şəxsən şahidəm ki, o, teatra gələn gündən roldan-rola təkminləşir, sənətkarlığı artır. Elə buna görə də təəccüblü deyil ki, onu Akademik Milli Dram teatrına müxtəlif rollar oynamaq üçün tez-tez dəvət edirlər. Pyesdə Farizin rolu o qədər də geniş yer tutmur. Qarabağ müharibəsinin ilk günlərində həlak olmuş Fariz Sabir vasitəsi ilə eşitdiyi oğlunun böyüdüyünü, nişanlandığını və toyu olduğunu böyük sevinclə qarşılayır. Farizin o dünyadakı əsgər dostları bu xəbəri yallı rəqsi ilə böyük coşqunluqla qeyd edirlər. Bu da Elşən Rüstəmovun sənətkar kimi daima təsirli ifasından gəlirdi. Toy rəqslərini tütəkdə özü çalırdı.

Ana rolunda çıxış edən Zemfira Əbdülsəmədova da səmimiliyi və təbiiliyi ilə, ürək titrədən çağırışları ilə, ahıları ilə diqqəti çox cəlb edir.

Alik rolunun ifaçısı Manaf Dadaşov da rolun ən kiçik vəziyyətlərini belə inandırıcı şəkildə nümayiş etdirə bilir. Bu dünyadan qayıdan Sabirdən o,ata-anasını görüb görmədiyini soruşur. Aradan 20 ildən çox vaxt keçdiyinə görə Sabir onun valideynlərinin artıq vəfat etdiklərini söyləyə bilmir.

Fərhad-Rasim Səfərov, Nərgiz-İlqarə Tosova, Ramil-Elgün Yahyayev, Sergey-Anar Seyfullayev də öz rollarını emosional bir doluluqla professional şəkildə ifa edirdilər.

Vaqif Əsədov Ülviyyə rolunu gənc aktrisa Günel Məmmədovaya tapşırmaqla doğru seçim etmişdir. Sabir və Ülviyyə bir-birinə çox yaraşan bir cütlük kimi alınmışdır. Onların gənc istedadları tamaşaya bir inandırıcı və qəribə bir əhval-ruhiyyə gətirir. Sanki səhnədə gördüklərimizin hamısı sehrkar varlıqlardı. Günel-Ülviyyənin sevgisi də, kədəri də bəzən eşidilən, eşidilməyən hıçqırıqları da tamaşaya fantastik bir əhval-ruhiyyə gətirir.

Tamaşa sübut etməyə çalışır ki, Qarabağ müharibəsindən qabaq nə vardısa, o, yox olmamışdı. Sadəcə bir az uzaq düşmüşdü. Əsgərlərin o dünyadan qışqıraraq bizi unutmayın sözləri tamaşa salonunu titrədir. O dünyadakılar sanki yarımçıq qalmış işlərin həsrətini çəkirlər. Lakin tamaşanın quruluşu, ifalar nikbinliklə onu deyir ki, "Yox Azərbaycan torpağında, xüsusilə Qarabağda heç bir planımız, işimiz, arzularımız, niyyətlərimiz yarımçıq qalmayacaqdır. Aprel ayındakı döyüş müvəffəqiyyətimiz buna gözəl sübutdur".

**Tamaşaçılar Vaqif Əsədova belə bir mövzunu emosionallıqla təqdim etdiyinə görə ona öz minnətdarlığını bildirir və mən öz adımdan onun 70 illik yubileyini səmimi qəlbdən təbrik edirəm.**

***AĞAKİŞİ KAZIMOV***
***Xalq artisti, professor***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ